QARABAĞ AZƏRBAYCANIN AYRILMAZ TƏRKİB HİSSƏSİDİR

Ermənistanın Azərbaycana qarşı davam edən uzun müddətli təcavüzü 27 sentyabr tarixində mantiqi sonluğuna gəlib çatdı. 30 ilə yaxın davam edən naticəsiz danışıqlar prosesini operativ nəticələr verən müdavam edən hərbi əməliyyatlar problemi və hazırkı müharibə ətrafında əvəz etdi. Bəs Dağlıq Qarabağ problemi və hazırkı müharibə ətrafında beynəlxalq hüququn mövqeyi nədir?

Hələ Sovet İttifaqının əsasının qoyulduğu ilk illərdə erməni milliyyətçiləri Dağlıq Qarabağa iddia ilə çıxış etmişdilər. 1991-ci ilin 25 dekabrında Sovet İttifaqı beynəlxalq münasibətlərin subyekti kimi öz varlığını başa vurduqdan dərhal sonra Qarabağda separatizm meylləri gücləndi və Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etdi. Hər bilirimizə məlum olan bu faktlardan sonra isə indi dünya ictimaiyyətinin bilmədiyi faktalara nəzər salmağa çalışacağıq.

ERMƏNİLƏRİN MÜQƏDDƏRAT ARQUMENTİ

Öz müqəddəratını təyin etmə hüququ, Qarabağ problemi başlayan gündən erməniləri istinad etdiyi məşhur hüquqi-siyasi termindir.

a) Bəs haqiqətən də ermənilər Qarabağda öz müqəddəratını təyin edə bilərlərmi?

b) Azərbaycanlıların Qarabağ və ətraf ərazilərdən kütləvi qovulmasından sonra öz müqəddəratını təyin etmək hüququ hansı əsaslarla aparıla bilər?

Bu cür proseslər ənənəvi olaraq plebistsit (və ya referendum) yolu ilə həyata keçirilir. Sual doğuran məqam budur ki, azərbaycanlıların kütləvi olaraq qovulmasını nəzərə alsaq, bu referendum nə ilə nəticələnəcək? Yəqin ki, bu suala cavab tapmaq asandır. 1991-ci ildə BMT-nin Əhalinin transferi üzrə xüsusi Raport qrupu hazırladığı hesabatda göstərmişdi ki, sonradan köçürülən şəxslər əhalinin etnik kompozisiyasını dəyişdirdiyi üçün bu referendum da yerli əhalinin öz istək və arzularını göstərməsinə mane olacaq faktordur. Mahz bu məqamda bilmək lazımdır ki, azərbaycanlıların iştirak edə bilməyəcəyi referendum, təbii ki, Dağlıq Qarabağ məsələsinin bizim milli maraqlarımız çərçivəsində həll olunmaması ilə nəticələnəcək.

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 1-ci maddəsinin 2-ci bəndinə və BMT Baş Assambleyasının məşhur 1514 saylı qətnaməsinə müvafiq olaraq bütün xalqların və etnik birliklərin öz müqəddəratlarını təyin etmək hüququ var. Ancaq xüsusi olaraq vurğulanmalıdır ki, bu, mütləq qayda-dada dövlətlərin suverenliyinin qorunması şərti ilə həyata keçirilməlidir. 1975-ci il tarixli Helsinki yekun aktının 8-ci maddəsinə görə, millətlərin öz müqəddəratını təyin etməsi yalnız və yalnız dövlətlərin suverenliyi çərçivəsində olmalıdır. 1974-cü ildən 2020-ci ilə kimi Avropa İttifaqının tərkib hissəsi olmuş Böyük Britaniya da müayyən formada öz subyektlərinin (devolved states) sesessiya istəkləri ilə qarşılaşıb. 2014-cü ildə Şotlandiya öz müstəqillik referendumunu keçirib, lakin bu referendum şotland milliyyətçilərinin məğlubiyyəti ilə başa çatıb. Şotlandiyanın birinci naziri Nikola Storcen sonra ikinci dəfə yeni referenduma cəhd göstərsə də, London administrasiyası Krallığın suverenliyini riskə atmayacaqlarını bildirərək bu istəyi rədd edib. Bənzər hadisə İspaniyanın Kataloniya muxtariyyətində də baş verib. Kataloniya əhalisinin böyük hissəsi müstəqilliyin lehinə səs versə də, İspan hökuməti buna kəskin reaksiya verib, şəhərə ordu və polis hissələri yerdilib. Sonradan isə muxtariyyətin rəhbəri Almaniyada həbs olunub.

Çox maraqlıdır ki, bu cür hadisələr Avropada baş verən zaman bu, Milli Təhlükəsizliyə qarşı fundamental təhdid, Azərbaycanda baş verəndə isə rəsmi Bakının erməni xalqının hüquqlarına hörmət etməməsi kimi qiymətləndirilir.

ERMƏNİSTANIN MÜHARİBƏ CİNAYƏTLƏRİ

Heç kimə sirr deyil ki, Ermənistan Qarabağı işğal altında saxladığı bu illər ərzində həmin ərazilərə qanunsuz olaraq çox sayda erməni köçürərək orada yeni məskənlər salıb. Xüsusi olaraq vurğulanmalıdır ki, Cenevrə Konvensiyasının 49-cu maddəsinin 6-cı bəndinə görə, işğalçının işğal olunmuş ərazilərə köçürmələr etməsi qəti qadağandır. Tarixi presedentlərə nəzər saldıqda görmək olar ki, 1946-cı ildə keçirilmiş Nürnberq tribunalında işğal olunmuş ərazilari "Almanlaşdırmağa" çalışanlar müharibə cinayətkarları kimi tanınıb.

Ermənistan tərəfinin tərətdiyi müharibə cinayətləri bununla yekunlaşmır. Humanitar atəşkəs rejiminin qüvvədə olduğu 11 oktyabr tarixində Ermənistan tərəfi təmas xəttindən ki raketlərdən atəş açıb və nəticədə 10 mülki vətəndaşımız həlak olub. Cenevrə konvensiyasının 53-cü maddəsinə görə, şəxsi əmlakın məhvi qadağan olunub. Beynəlxalq Cinayət Məhkəməsi nizamnaməsinin 8 (2) (B) (XIII) maddəsində də, hərbi üstünlüyə gətirməyəcəyi təqdirdə mülki obyektlərin məhv olunması müharibə cinayəti hesab olunur.

Bir-sıra dövlətlər Azərbaycanın Qarabağ cəbhəsində xarici muzdlulardan istifadə etməsini təkidlə iddia etsə də, hələ də bununla bağlı bir dənə olsun belə, sübut təqdim edilməyib. Eyni iddialar, obyektivlik naminə, Ermənistan barəsində də səsləndirilir. BMT Baş Assambleyasının 47/82 saylı qətnaməsinin 26-cı maddəsinə görə, muzdlu döyüşçülərdən istifadə cinayət sayılır.

QARABAĞIN STATUSU. MÜSTƏQİL DÖVLƏT, YOXSA ERMƏNİSTANIN TƏRKİB HİSSƏSİ?

Hazırda Azərbaycan tərəfindən apanılan hərbi əməliyyatlar Azərbaycanın öz ərazisində apanılır və bu məqamı xüsusilə vurğulamaq lazımdır. 1992-ci ilin 2 mart tarixində Azərbaycan öz müstəqillik tarixində ilk strateji addımlarından birini ataraq BMT-nin üzvlüyünə qəbul olunub. Azərbaycanı hazırkı sərhədlərini ilə dünyanın 155 dövləti tanıyıb. Ermənistanın danışıqlar prosesində Dağlıq Qarabağ separatçı rejimini tərəf kimi göstərməyə çalışması özü özlüyündə bir sıra suallar doğurur.

Bəs Dağlıq Qarabağ müstəqil dövlət ola bilərmi?

Montevideo Konvensiyasının 1-ci maddəsinə uyğun olaraq subyektin dövlət kimi tanınması üçün 4 əsas kriteriya müayyənləşdirilib:

1) Daimi əhali
2) Daimi ərazi
3) Hökumət
4) Beynəlxalq münasibətlərə girmək bacarığı

Dağlıq Qarabağ separatçı rejiminin bu 4 kriteriyaya cavab vermədiyi açıq məlumdur. Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi olmuş Henri Stimson Stimson Doktrinasının əsasını qoyub. Bu doktrinaya görə, aqressiya və işğal ilə yaradılmış dövlətlərin tanınma bilməz. Doktrina "ex injuria jus non oritur" (əsassız faktlar hüquqi baza yarada bilməz) prinsipinin tətbiqini özündə ehtiva edir. Aqressiya və işğal yolu ilə əsası qoyulmuş istənilən subyektin dövlət kimi tanınması qeyri-mümkündür.

BMT-nin 29 dekabr 1974-cü ildə qəbul etdiyi 3314 saylı Aqressiya haqqında qətnaməsinə görə, dövlətlərin ərazisi müvəqqəti və ya daimi işğala məruz qala bilməz. Bu əmllər onu göstərir ki Dağlıq Qarabağın müstəqil dövlət kimi mövcudluğuna yol verilmir.

Dağlıq Qarabağın subyekt olaraq Ermənistan üçün hansı rolu oynadığını demək çox çətindir. Çünki erməni tərəfi bəzən Qarabağı müstəqil dövlət, bəzən isə Ermənistanın tərkib hissəsi kimi təqdim edir. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədlərinə Dağlıq Qarabağ bölgəsi daxildir. Konstitusiyamızın 3-cü maddəsinin 2-ci bəndinə görə, ölkəmizin sərhədləri yalnız referendumla dəyişilə bilər. Bu da o deməkdir ki, Dağlıq Qarabağ Azərbaycanın nəzarətindən yalnız və yalnız xalqımızın iradəsi ilə çıxanla bilər.

DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNİN DİPLOMATİK YOLLA HƏLLİ YOLU VƏ HÜQUQİ ƏSASLAR

1994-cü ilin mayında imzalanmış Bişkek protokolunda vurğulanan əsas məqamlardan biri də işğalçı qüvvələrin Dağlıq Qarabağ regionundan çıxanlması olub. Əfsuslar olsun ki, bu istiqamətdə əsaslı addımlar atılmayıb. BMT Təhlükəsizlik Şurası hər birimizin yaxşı tanış olduğu 4 qətnamə qəbul edib. Bu qətnamələr və onların məğzləri xronoloji ardıcıllıqla aşağıdakı kimidir:

BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi (1993) 30 aprel 1993-cü il

Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi səbəbi ilə qəbul olunub. Qətnamə Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın tarixi ərazisi olan Kəlbəcər rayonunu işğal etməsindən sonra qəbul olunub. Qətnamədə deyilir:

Təhlükəsizlik Şurası - Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurasının Sədri tərəfindən edilən 1993-cü il 29 yanvar 1 və 6 aprel 2 tarixli bəyanatlarına əsaslanaraq,

Baş Katibin 14 aprel 1993-cü il 3 tarixli məruzəsini nəzərə alaraq,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pislaşması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

Silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə, yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyacanla qeyd edərək,

Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar narahat olaraq,

Böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda, fövqəladə humanitar vəziyyətə bağlı ciddi narahatçılığını ifadə edərək,

Regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdan istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək, və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə bilməyindən dərindən narahat olaraq,

1) Mönkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxanlmasını tələb edir;

2) Münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində hell edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal barışa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır;

3) Mülki əhalinin əzablanını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir;

4) Baş Katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Fəaliyyətdə olan Sədri, həmçinin Müşavirənin Minsk qrupunun Sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir;

5) Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi (1993) 29 iyul 1993-cü il

Təhlükəsizlik Şurası 30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun Sədrinin 27 iyul 1993-cü il tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək,

Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pislaşması və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

Hamçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdan istifadənin yolverilməzliyini bir daha təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək, və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə bilməyindən dərindən narahat olaraq,

Mərqəzi tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq,

Hərbi əməliyyatların genişlənməsini və xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək,

Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsilə əlaqədar narahat olaraq,

Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdan istifadənin yolverilməzliyini bir daha təsdiq edərək:

1. Ağdam rayonunun və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal olunmuş rayonlarının işğalını pislayır;

2. Bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pislayır;

3. Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxanlmasını tələb edir;

4. Mərəqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;

5. Yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir;

6. 822 saylı (1993) qətnamənin həyata keçirilməsi üzrə Sədrin qəbul olmaqla, ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyanır və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatçılığını ifadə edir;

7. Yerləşdirilməsi cədvəli ilə ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır;

8. Mərəqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq,

Hərbi əməliyyatların genişlənməsini və xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək,

Belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsilə əlaqədar narahat olaraq,

9. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırkı qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır;

10. Dövlətləri münaqişənin intensivləşməsinə və yə ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir da çağırır və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir; Qətnamə Təhlükəsizlik Şurası-nın 3259 saylı yığıncağında yekdillik-lə qəbul olunmuşdur.

Azərbaycan Respublikasının böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək,

Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

Həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdan istifadənin yolverilməzliyini bir daha təsdiq edərək:

1. Ağdam rayonunun və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal olunmuş rayonlarının işğalını pislayır;

2. Bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pislayır;

3. Bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxanlmasını tələb edir;

4. Mərəqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır;

5. Yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir;

6. 822 saylı (1993) qətnamənin həyata keçirilməsi üzrə Sədrin, həmçinin Minsk qrupunun Sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir;

14. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi (1993) 14 oktyabr 1993-cü il

30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası Sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına müraciətlərmiş 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatçılığını ifadə edərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək, bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdan istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, münaqişə üzündən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi ilə əlaqədar özünün ciddi narahatçılığını bir daha ifadə edərək,

1. Regionda bütün dövlətləri münaqişənin genişlənməsinə qətiylə çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və layaqətlə öz evlərinə qayıtmağa kömək edilməsini xahiş edir;

12. Baş Katibdən, ATƏM-in fəaliyyətdə olan Sədrindən və ATƏM-in Minsk Konfransının Sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir;

13. Məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.

3292 saylı iclasda yekdillikla qəbul edilmişdir.

BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi (1993) 12 noyabr 1993-cü il

30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini təsdiq edərək, ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının fəaliyyətdə olan Sədrinin Təhlükəsizlik Şurası Sədrinin adına müraciətlərmiş 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, atəşkəsin pozulması və buna cavab olaraq gücün haddindan artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək, Azərbaycan Respublikasının və regionda digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək, son zamanda böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək,

1. Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pislayır;

2. Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə, hərbi kampaniyanı genişləndirmək üçün lazımı vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır;

3. ATƏM-in Minsk qrupunun dördüncü üzvünün 4 noyabr 1993-cü il tarixli Bayannaməsini alqışlayır və onun tərkibində atəşkəsin dayandırılması haqqında olan bitərəfli bəyanatlarla bağlı təkliflərə yüksək qiymətləndirir;

4. Mərəqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə «Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların yerinə yetirilməsi üçün» ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə yenilənmiş cədvəl kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axtarılmasına təkidlə çağırır;

6. Regionda olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin fövqəladə humanitar vəziyyətinə dair ciddi narahatçılığını ifadə edərək,

1. Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pislayır;

2. Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə, hərbi kampaniyanı genişləndirmək üçün lazımı vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır;

3. ATƏM-in Minsk qrupunun dörd